*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2024*
*Səh. 283-290*

# *ƏDƏBİYYATŞÜNASLIQ*

https://doi.org/10.62837/2024.5.283

**RƏNA N.RZAYEVA**
AMEA akad.Z.M.Bünyadov adına
Şərqşünaslıq İnstitutunun İran
filologiyası şöbəsinin aparıcı elmi
işçisi, dos.
rzayeva1958@icloud.com

## "TƏSƏVVÜF" İSLAM İDEOLOQİYASININ, İSLAM ƏXLAQININ ƏSASINDA YARANMIŞ BİR TƏLİMDİR

***Xülasə***

Təqdim olunmuş məqalənin əsas məqsədi təsəvvüfün bir təlim kimi İislama və Qurana əsaslandığını nəzərə çatdırmaq, təsəvvüfün zöhd, təsəvvüf və təriqqət olaraq üç mərhələyə bölünməsini tədqiq etməkdir. Məqalədə təsəvvüf, mürid-mürşid münasibətləri müəyyən qədər araşdırılaraq təqdim edilmişdir. Təsəvvüfün, sufiliyin zöhdlə, zahidliklə eynilik təşkil etdiyini, bu təlimin kökünü zahidlikdən götürdüyünü nəzərə çatdırmaqdır. Məqalədə həmçinin fəlsəfə ilə təsəvvüfün yaxınlığından, onların hər ikisinin bir-biri ilə əlaqəli olmasından bəhs edilir. Bu təlimlərin yaxın prinsiplərə əsaslandığından bəhs edilir. Bundan başqa məqalədə İslamın başlıca prinsipi olan Tövhiddən də söz açılır. Daha sonra təsəvvüf, şəriət və fəlsəfə təlimlərinin ortaq bir məxrəcdə birləşərək cəmiyyətə öz təsirini göstərməyə başlamasından da söz açılır və bu prinsiplərin, mərhələlərin hər biri ayrı-ayrılıqda, qismən də olsa, təhlil edilir.

Nəticə etibarilə təsəvvüfün keçdiyi mərhələlər, hər bir mərhələnin fərdi xüsusiyyətləri, təlimin prinsiplərinin başqa təlimlərlə kəsişdiyi məqamları təqdim edilir.

***Açar sözlər:*** təsəvvüf, zahidlik, fəlsəfə, tövhid, təriqət, zahid, təlim

**РЗАЕВА Р. Н.**

## «СУФИЗМ» — УЧЕНИЕ, ОСНОВАННОЕ НА ИСЛАМСКОЙ ИДЕОЛОГИИ И ИСЛАМСКОЙ МОРАЛИ

**Резюме**

Основная цель представленной статьи заключается в представлении суфизма как учение основанную на Исламе и Коране, изучить суфизм разделённый на три стадии как аскетизм, суфизм и тарикаты. В статье в той

или иной мере рассмотрены и представлены отношения суфий как муридов и муршидов . Следует отметить, что тасаввоф и суфизм связаны аскетизмом и аскетами, и что это учение берет свое начало именно от аскетизма. В статье также говорится о близости философии и суфизма, о том, что они оба родственны друг другу. Считается, что эти учения основаны на близких принципах. Кроме того, в статье также говорится о Единобожии, являющемся основным принципом Ислама. Позднее упоминается, что учения суфизма, шариата и философии, объединенные общим знаменателем, стали оказывать свое влияние на общество, и каждый из этих принципов и этапов анализируется и отдельно, и частично.

В результате представлены этапы суфизма, индивидуальные особенности каждого этапа, точки пересечения принципов учения с другими учениями.

***Ключевые слова:*** суфизм, аскетизм, философия, монотеизм, секта, отшельник, учение

**RANA N. RZAYEVA**

**"SUFISM" IS A TEACHING BASED ON ISLAMIC IDEOLOGY AND ISLAMIC MORALITY**

***Summary***

The article is directed to the study of Sufism, one of the most important factors influencing the cultural-spiritual and socio-political life of the medieval East. In the article, an attempt has been made to clarify the extreme and moderate aspects of Sufism by reviewing its formation and path. The presented article also talks about sects, sect literature, creation and spread of this literature. In addition, the article also mentions that Sufism was originally rooted in asceticism and that Sufis are followers of some kind of hermits.

In addition, the article mentions that Sufism and philosophy intersect at a common point and that they complement each other. It is said that philosophy is related to the secular world, and Sufism is related to the spiritual world.

In the article, an attempt was made to create a general idea of a mystical and religio-philosophical worldview of "Sufism" that emerged within the framework of Islam and considers it possible for a person to communicate directly with God through a personal psychological experience.

From this point of view, Sufism should be studied and studied in parallel with philosophy.

***Key words:*** Sufism, asceticism, philosophy, monotheism, sect, hermit, teaching

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2024*
*Səh. 283-290*

Son zamanlar alimlərin, tədqiqatçıların diqqət mərkəzində olan, cəmiyyəti düşündürüb xüsusi dini, fəlsəfi, mistik təlimə cəlb edən mövzu "təsəvvüf"dür.

VIII-IX əsrlərdə meydana gələn sufizm müsəlman Şərqində ən çox yayılmış dini-fəlsəfi, mistik dünyagörüşüdür. Təsəvvüfün həm Şərq, həm də Qərb tədqiqatçılarının çoxu bu fikirdədir ki, bu təlim İslam zəminində meydana gəlib və onun iki əsas mənbəyi var: Quran və sünnət. Başqa kənar təsirlərin o qədər də əhəmiyyəti yoxdur. ( 2, s.107.)

Təsəvvüf İslamın mənəvi, ruhani həyat tərzidir. Bu təlimin tədqiq edilib öyrənilməsi təkcə bir cərəyanın öyrənilməsi kimi qiymətləndirilə bilməz. Belə ki, təsəvvüfün öyrənilməsi müsəlman ədəbi, mədəni, fəlsəfi fikrinin formalaşlandığı bir zaman kəsiyini əhatə etməklə həmin zaman kəsiyində geniş vüsət almış mükəmməl bir təlimin davamlı şəkildə inkişafını tədqiq etmək deməkdir. Məhz bu təlimin yaranması ilə insanın öz "mən"i ilə mücadiləsi nəticəsində saf, yəni "sufi" adlandırılan insanlar meydana çıxmışdır. Məhz bu insanlar öz yaşam tərzləri, öz dünyagörüşləri, öz daxili dünyaları ilə "təsəvvüf"ü yaratmışlar. "Təsəvvüf" İslam ideoloqiyasının, İslam əxlaqının əsasında yaranmış bir təlimdir ki, onun aparıcı ideyası dünyəvilikdən uzaqlaşıb batiniliyə, iç dünyasına çəkilmək, bütün nəfsanə hisslərdən uzaq durub, ali hisslərlə yaşamaqdır . Sufilərə görə ancaq bu yolu gedən insan İlahiyə qovuşmağa qadirdir. Sufizm təmsilçiləri hesab edirdilər ki, şəxsi ruhi-psixoliji təcrübə vasitəsilə insanın Allah ilə bilavasitə mənəvi ünsiyyəti, heç olmasa hələlik kənardan seyr etməsi, sonra isə tamamilə qovuşması mümkündür. ( 2, s.107. Yusif Rüstəmov.)

Təsəvvüfdə, şübhəsiz ki, bəşəriyyətin ən müxtəlif dini və mistik-ekstatik sistemlərinin

irsinin elementləri vardır: yəhudi Kabbala və erkən xristian qnostisizmi, zərdüştilik etikası

və hindu teologiyası...

Hətta sufizmin bəzi müddəaları ilə qədim misirlilərin və Mesopotamiya sakinlərinin

varlığın mahiyyəti və mənası haqqında təsəvvürləri arasında əlaqə vardır. Bununla belə, sufilərin bütün nəzəri konstruksiyaları və onların bütün mənəvi praktikası tövhid anlayışına - Tanrının birliyinə və ölməz insan ruhunun tədricən Yaradan ilə vəhdətə yüksəlməsi konsepsiyasına tabedir.(3, c.10 )

Müsəlman olan bir insanın ən birinci öhdəliyi, borcu və Allahın onun üzərində olan ən böyük haqqı məhz Tövhiddir. Bəs tövhidə necə yiyələnmək mümkündür? Tövhidi mürşidsiz anlamaq, qavramaq mümkündürmü?

İmam Qəzalinin "Abidlər yolu" əsərində oxuyuruq: Düşünərsən ki, " Haqqında bəhs edilən Tövhid təlimi mürşidsiz əldə edilə bilərmi?

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2024*
*Səh. 283-290*

Bil ki, ustad, mürşid yol göstərən, asanlaşdırandır. Onunla birlikdə öyrənmək daha asand və daha rahatdır. Bunu mürşidsiz öyrənməyi Allah-Təala həddindən çox sevdiyi quluna ehsan edər. Onların mürşidi isə Allah Təaladır".( 9, s.36 )

Sufizmin formalaşma mərhələsi VIII-X əsrlərə təsadüf edir ki, bu dövrdə o, asketizmdən

(zahidlik hərəkatından) ayrılaraq müstəqil dini-fəlsəfi və əxlaqi bir təlimə çevrilmişdir.

**Doğrudur, bəzi tədqiqatçılar zahidliyi nəzəri irsi, müəyyən təlimi, doktrinası olmadığı üçün sufiliyə aid etmirlər, asketizmin dünya nemətlərindən əl çəkib, tərki-dünya olub haqq yoluna qədəm qoymaqdan başqa bir şey olmadığını iddia edirlər və bu şübhəsiz ki, çox mübahisəyə səbəb olur. Belə ki, sufizmin, məhz, zahidliyin içindən doğan bir təlim olduğunu təsdiq edən bir çox faktlardan biri də, elə onda da tərkidünyalıq prinsipinin mövcudluğudur. Bundan başqa, sufizmin aparıcı ideyaları olan daxili, mənəvi təmizlənmə, dünya nemətlərindən imtina, nəfs üzərində hakim olmaq kimi xüsusiyyətlər də kökünü, məhz, zahidlikdən götürmüşdür.**

**( 5, s.33.)**

**X əsrin sonları XI əsrin əvvəllərində İslam dünyasının ehkam ilahiyyatı öz sonuna yetişməkdə idi, məhz bu dövrdə yaradılmış hər hansı tarixi, aqioqrafik və başqa ədəbi abidələrdə dövrün tanınmış, nüfuzlu ilahiyyat alimlərinin, müxtəlif təriqətlərin nüfuzlu nümayəndələrinin təsiri açıq-aşkar təzahür edirdi.( 4, s.94 )**

**Nəhayət, təsəvvüf, şəriət və fəlsəfə təlimləri ortaq bir məxrəcdə birləşərək cəmiyyətə**

**öz təsirini göstərməyə başlamışdır. ( 4, s.99 )**

**Əslində, təsəvvüflə fəlsəfənin kəsişdiyi bir fundamental məqam mövcuddur. Mahmud Erol Kılıcın «Təsəvvüfə giriş» kitabının «Təsəvvüf Ezoterik Bir Hikmət Fəlsəfəsidir» bölümündə oxuyuruq: «Fəlsəfə ilə təsəvvüfün birləşdiyi və ya ayrıldığı məqam mövcuddur. XV əsr İslam filosofu, teoloq, şair Cəlaləddin Dəvvani deyir: «Təsəvvüf ilə fəlsəfə qonşudurlar. Bir-birlərini ziyarət edərlər». Hər hansı bir məsələ antoloji (dünyanın yaranışını öyrənmək prinsipləri) və epistemoloji (dünyanın yaradılmasının prinsiplərinin öyrənilməsi şərtləri) məsələləri öyrənməyə yönəlmişdirsə, bunu «fəlsəfə» adlandırmaq olar. Təsəvvüf isə ezoterik, inisiyatik (batini və cilddən-cildə, haldan-hala düşmə, dəyişmə) baxımdan bir hikmət fəlsəfəsidir. Çünki «Təsəvvüf», əslində, bir din fəlsəfəsidir».( 10, səh.87 ) Yəni fəlsəfə dünyanı, dünyanın görünməyən tərəflərini öyrənirsə, təsəvvüf insanın iç dünyasını, görünməyən tərəflərini öyrənir. Məlumdur ki İnsan ilə Dünya bir vəhdət təşkil edirlər və nə dünyanı**

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2024*
*Səh. 283-290*
**insandan kənarda, nə də insanı dünyadan kənarda qavramaq, dərk etmək mümkündür. Bu səbəbdən təsəvvüf din fəlsəfəsi kimi qəbul olunmalıdır.**

İslam ezoterizmi, dediyimiz kimi, "batinilik" anlamına gəlir ki, bu da təsəvvüfün əsas göstəricisidir. ( 8, s.26.)

Ümumiyyətlə "Təsəvvüf" nədir sualına necə cavab vermək olar?

Təsəvvüf kamil bir mürşidin rəhbərliyi və nəzarətində tərbiyə almaqdır. Bu tərbiyənin sonu isə olğun bir insan olmaqdır. Bu olğun insana Allah adamı (ricalullah) deyilir.

Təsəvvüf dünya adamını Allah adamı etməkdir.

Təsəvvüf qəlbi fani şeylərdən təmizləyib Allaha bağlamaqdır.

Təsəvvüf əslini tanımış, mənəmlik əngəlini aşmış, nəfsini islah etmiş, ilahi sevgi ilə köklənmiş, qəlbi hür, könlü Allah ilə hüzur tapmış gözəl insan yetişdirməkdir.( 7, s.32 )

Əslində, təsəvvüf insan tərbiyəsini hədəfə alan və insanı daima gündəmdə tutan bir sistemdir. Nə qədər ki dünyada insan var və nə qədər ki insan gözəl əxlaqa malikdir - belə ki gözəl əxlaq Allaha xidmətin əsas şərtidi - təsəvvüf də mövcud olacaqdır. Təsəvvüfün özünə məxsus tərbiyə, əxlaq prinsipləri mövcuddur. Təsəvvüf bir ədəbdir, pis xüsusiyyətləri tərk edib, gözəl xüsusiyyətlər qazanmaqdır, kimsədən inciməmək, kimsəni incitməməkdir, nəfsə qarşı bir mübarizədir, hər kəsin yükünü çəkmək, kimsəyə yük olmamaqdır, bütün insanlara sevgi ilə baxmaq və onları özünə dost bilməkdir.

Ümumilikdə isə "təsəvvüf" ün mənasını, bu təlimin nə demək olduğunu, bu təlimin dərinliyində hansı məqamların durduğunu birmənalı şəkildə ifadə etmək, müəyyənləşdirmək, demək olar ki, mümkün deyildir.

....Sufizmi məzhəb də hesab etmək mümkün deyildir, belə ki, sufilər heç bir dini ehkama bağlı deyillər və daimi ibadət yerləri yoxdur...( 1, s.43)

Bütün bu qarşıya çıxmış suallarla bərabər "təsəvvüf"ün kamil bir təlim, "sufi"nin isə
kamil bir insan, nəfsinə hakim olan bir mömin olduğunu söyləməmək mümkün deyildir.

Bəs sufi kimdir? Sufilərin dünyagörüşü, dünyaya baxışı nədir? Onların nəzərində kamillik, saflıq nədir? Sufilər kamil insanın əldə etdiyi bəşəri kamilliyi bütün ilahi sifətlərin tarazlıqda qovuşması və Allahın Özünün Öz surətində tam təcəllisi kimi görürlər.(11, s.27 )

Təsəvvüfü müəyyən qədər anlamaq, bu təlimin özəlliklərini dərk etmək üçün, şübhəsiz ki, bir qədər əvvələ müraciət etmək lazımdır.

Təsəvvüf tarixi öz-özlüyündə, zöhd, təsəvvüf, təriqət olmaqla, üç mərhələdən ibarətdir. Onun birinci mərhələsi zöhd olub daha çox bu yolun yolçularının həyat tərzini özündə təcəssüm etdirir. Təsəvvüfün bu mərhələsində insan özü ilə mücadilə

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2024*
*Səh. 283-290*
edib nəfsanə hisslərdən, dünya, dünya nemətlərindən əl çəkib, insanlardan, cəmiyyətdən uzaqlaşıb tək yaşamağı özünə yol seçərək səbir, Allah qorxusu, hüzn, zikr, şübhəli olan hər bir şeydən uzaq olaraq yaşamağı seçir. Zöhd dövrünün sonu VIII əsrin ortalarına-İslam tarixinin tabiin

( səbahələri görmüşlər) dövrünə təsadüf edir.

Seyid Yəhya Bakuvi zöhdü belə ifadə edir:
Zöhd adlı bu mənzilə gəldiyin zaman
Sənin vəzifən yalnız təsbeh və vird olacaqdır.
Allahı yad etməkdən başqa işin olmayacaq,
Dilin daima zikr və əzkarda olacaqdır.
Mürəqqeni özünə libas edəcəksən,
Bu mənzildə bundan başqa bir şeyin olmaz.
Yamaqlı kilimi özünə səccadə edəcəksən.
Həlimliyi, yumşaqlığı özünə şüar edəcəksən,
Dünya sevgisindən tamahını kəsəcəksən.
Qəlbini və ruhunu bütünlüklə Mövlaya tapşıracaqsan,

Allahın zikrindən özgə həmdəmin,
İbadətdən özgə cəhdin və səyin qalmayacaq.
Gecə-gündüz Dostu yad edərək nalə çəkəcək,
Canü könüldən Dostun vüsalını arayacaqsan.
Canının bundan özgə təmənnası qlamayacaq,
Yanmaqdan başqa dərmanın olmayacaq.( 6, IIcild.s.33)

Gördüyümüz kimi, burada bütün fikir "Dost"a, yəni "Allah"a yönəlmişdir.

Bu təlimin ikinci mərhələsi olan təsəvvüf isə ilk olaraq Bəsrədə meydana gəlmişdir. İlk olaraq sufi adını alan Əbu Haşim əs-Sufi(v.767) olmuşdur və ilk təkkə də Suriyada Rəml şəhərindəki Əbu Haşim təkkəsidir. Məhz Əbu Haşimlə başlayan təsəvvüfi hərəkatlar qısa bir zamanda digər İslam ölkələrinə də yayılmışdır.

IX əsrdən başlayaraq təsəvvüfdə müəyyən sistem yaranmağa başlamışdır.

Bir tərəfdən təsəvvüfün prinsip, ideyaları müəyyənləşir, digər tərəfdən sufi təkkələri qurulmağa başlamışdır. Bu dövrdə təsəvvüfdə böyük dəyişiklik, inkişaf açıq-aşkar özünü göstərməkdə idi. Məhz həmin dövrdə təsəvvüf sözünü ilk dəfə olaraq işlədən Məruf Kərxi, təsəvvüf düşüncəsinə mərifət ünsürünü gətirən Zunnun Misri, təsəvvüfi halları incəliyən Səri Səqəti, zöhd və təsəvvüfə yeni meyarlar gətirən Bəyazid Bəstami, Haqq yolunda canından keçən Mənsur Həllac, Qəzalini hazırlayan, yetişdirən və Bağdad sufilərinin mübaliğəsiz ustadı qəbul edilən Cüneyd Bağdadi, Allah qorxusuna əsaslanan təqva anlayışı ilə Həsən Bəsri, ilk təkkəni quran və sufi ləqəbli ilk zahid Əbu Haşim əs-Sufi, təsəvvüfə Allah eşqini gətirən Rəbiə əl-Ədəviyyə kimi zahidlər və sufilər olmuşlar.

İlk təriqətlərin meydana gəldiyi XII əsrə qədər olan bu dövrdə təsəvvüf daha çox praktikaya-təcrübəyə əsaslanırdı. Həmin dövrdə nəzəriyyəyə çox üstünlük verməyən təsəvvüf sadə, lakin dərin anlamda bir mənəvi həyatı özündə təcəssüm etdirirdi.

Yenə də Seyid Yəhya Bakuviyə müraciət edərək onun təsəvvüf haqqında dediklərinə nəzər salaq:

Digər mənzilin təsəvvüfdür,
Sən burada təkəllüfdən azad olursan.
Bu mənzildə bütün dünyəvi istəklər (həvalar) getmiş olur,
Saflıq süpürgəsi ilə bu yoldan süpürülüb atılır.
Bir tükün ucu qədər səbəbin rəngi və ətri yox,
Dostdan başqa səndə bir arzu yoxdur.
Vəhdət şərabından elə yekdil olursan ki,
Kəsrət də sənin nəzərində vəhdətlə bir olur.
Dostdan başqa heç nə görmürsən,
Sən ikilikdən azad olursan.
Nəfsin bütün feilləri bir yöndə olsa,
Xəyanətə bir tük ucu qədər yer qalmaz.
Səndən gərəksiz bir söz çıxmaz ki,
Dedikdən sonra təəssüf edəsən.
Sən hərəkətlərində və sözlərində saf olarsan.
Qal və halın müvafiq olar,
Bu mənzilə qədər gəlib çatan hər kəsin
Qəlbindən minlərlə nalə qopar.
Sözü də məna olar,
Qəlbindən gəlməyən bir söz söyləməz.
Qəbi Haqdan xəbər verən məna olar,
Ona hər zaman Haqdan müjdə gələr.(6, IIcild.s.46)

Artıq məlumdur ki, təsəvvüf mahiyyətli şeirlərdə, Allahın dərkinə göstərilən cəhdlər eşq və məhəbbətlə eyniləşdirilir və Allahın özü "Dost", "Yar", "Haq", "Sevgili" adlandırılır. Misal gətirdiyimiz bu iki parçada da, şübhəsiz ki, "Dost" deyəndə Allah nəzərdə tutulmuşdur.

Artıq XII əsrin ikinci yarısından başlayaraq təsəvvüf təşkilatlanma prosesinə girmişdir. Təsəvvüfün qayda, üslub və üsulları bəzi fərqlərlə yenidən müəyyənləşərək mütəsəvviflər tərəfindən öz adlarına bağlı müxtəlif təriqətlər şəklində yaranmağa başlamışdır. Təsəvvüfün daha təsirli olmasını, xalq arasında daha sürətli bir şəkildə yayılmasını təmin edən təriqətlər varlıqlarını bütün İslam dünyasında günümüzə qədər qoruya bilmişlər. (12, s.71) Bu təriqətlərin hər birinin

ayrı-ayrılıqda oxşar və fərqli cəhətləri vardır. Ən əsası isə odur ki, onların hamısının seçdiyi və getdiyi yol Haqq yolu, məqsədləri Haqqa qovuşmaq olub.

**Ədəbiyyat siyahısı:**

1. İlhamə İbrahimova. Mövlana Cəlaləddin Ruminin "Məsnəvi-ye Mənəvi" əsəri İslam təsəvvüfünün əsas qaynaqlarından biri kimi" Bakı."Nafta-Press" 2005.178səh. s.43
2. Yusif Rüstəmov. Fəlsəfənin əsasları. Nurlar nəşriyyat poliqrafiya mərkəzi. Bakı 2007.504səh.s.107.
3. Джалаладдин Руми. Дорога превращений.Суфийские притчи в поэтическом переводе Дмитрия Щедровицкого.Москва.2011.380стр. с10)
4. s.94 Маматов М.А. Сущность суфизма: для студентов с углубленным изучением истории и культуры ислама–Уфа: Изд-во БГПУ, 2011, 168 с. 21
5. s.33. И.Р.Насыров Основания Исламского Мистицизма Генезис и Эволюция Языки Славянских Культур Москва 2009
6. 10. IIcild.s.33
7. Dilaver Selvi. Kaynaklarıyla Tasavvuf (adab-mürşid-hizmet), Semerkand. İstanbul.2013. 694 səh, s.32)
8. Ergun Candan. Tasavvufi Batini Ezoterik Öğetilere Göre Kuran-ı Kerimin Gizli Öğretesi. İstanbul-2011. 581 səh. s.26.
9. İmam Qazali. Abidler yolu. Çağaloğlu-İstanbul-2011.343səh.s.36
10. səh.87 Mahmud Erol Kılıç, Sufi Kitap, 5.baskı, səh.87
11. Mahmud Erol Kılıç Tasavvuf düşüncesi. Bakı.2014.334səh. s.27
12. Mehmet Rıhtım. Seyid Yəhya Bakuvi və Xəlvətilik "Qismət"-2005-Bakı. 252səh.s.71

**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Günay Verdiyeva**